**GÜNAY AlIYEVA**
**ADPU**
**gunay@mail.ru**

# TƏLƏBƏLƏRİN MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏT BACARIQLARININ İNKİŞAFINDA KEYS METODUNDAN İSTİFADƏNİN MƏQSƏDİ

**Açar sözlər:** metod, məqsəd, rol, ünsiyyət, mədəniyyətlərarası, tədris
**Key words:** method, purpose, role, communication, intercultural, teaching
**Ключевые слова:** метод, цель, роль, общение, межкультурное обучение

Keys metodu bir tədris metodudur. Metod iyirminci əsrdə Harvard Universiteti alimi Krostofer C.Langdel tərəfindən irəli sürülüb. Digər tədris metodlarından fərqli olaraq, bu metodda əsas məqsəd tələbələrin müzakirəyə cəlb olunmasıdır. Müəllim məlumatı təqdim edir və tələbə qərar verməkdə, qərarını səsləndirməkdə sərbəstdir. Xüsusilə də keys metodunda tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi ön planda dayanır. Tələbələr müxtəlif insanların bir sıra həyat problemləri qarşısında qalır və onlardan həmin anda hansı qərarları verə biləcəkləri soruşulur. Keys metodundan istifadə edən müəllim tələbələrə şərait yaradır ki, tədqim olunan mövzu ilə əlaqədar ona verilmiş məlumatdan istifadə edərək öz fikrini çatdırsın [3, s. 15].

Məsələn bir situasiya quraq. İngilis dilini xarici dil kimi tədris edən müəllim tələbələrə ingilis dilində metaforlar barədə məlumat verir. Bu zaman müəllim keys metodundan istifadə etmək istəyir. O, tələbələr arasında ‘decision-force case’ oyununu tətbiq etmək istəyir. Müəllim onlara aşağıdakı mətni təqdim edir:

**QUITTERS CAN BE WINNERS**

*Bill Gates has been named the world’s richest man 16 times. While he owes much of his success to perseverance, he probably owes just as much to his willingness to quit.*

*It turns out that the old saying, “Guitters never win and winners never quit” isn’t exactly true.Many of the world’s most successful people are serial quitt ers.*

*Gates probably wouldn’t be the famous billionaire he is today if he hadn’t dr opped out ofcollege.*

*In one study the psychologists looked at two different groups of people. They called the groupthat was willing to give up the "Quitters" and the group that refused to give up, the "Bulldogs."*
*In almost every measure of health, the Quitters performed better. They suffer ed less fromskin disorders, poor sleep, indigestion, and headaches. They also found that the Bulldog'sstress hormones showed they were in a state of chro nic stress* [www.truestories.com]

Mətn real həyatdan götürülüb və metaforlarla zəngindir. Bu zaman tələbələr bu problemin həlli, müdafiə edilməsi, müzakirə edilməsi üçün məcburiyyət qarşısında qalaraq (müəllimin tələbi ilə) özlərini həmin şəxsin yerinə qoyaraq müzakirəyə başlayırlar.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsi baxımından bu metodun əhəmiyyəti ondan ibarətdir ki, metod müxtəlif situasiyalarda fərqli ölkələrdə olan insanların bir-birlərinin vəziyyətlərini hiss etmələri, bir-birlərinin həyat və düşüncə tərzlərini duymaları üçün olduqca sərfəlidir.

Keys metodu ilə öyrətmədə tələbələr real dünya situasiyalarını nəzərdən keçirirlər. Adətən nəzərdən keçirilən problemlər tələbələri düşündürəcək, yaxud dilema yaradacaq problemlər hesab edilir. Bu vəziyyətdə tələbələr qərar qəbul edən rolunda olur və 'problemin həllini necə tapmaq olar?' kimi suallara cavab verməli olurlar. Keys metodu ilə öyrətmədə ön planda bu məsələlər durur.

Bu metodda hadisələrin real həyat reallıqları ilə bağlı olması tələbələrdə maraq yaradır və nəzəriyyə ilə praktikanın birləşməsini təmin edə bilir. Tələbələr real həyatda baş verənlərlə praktikanı birləşdirdikləri zaman cari nəzəriyyəni nəzərdən keçirir, nəticələr əldə edir və həmçinin nəticələrə diqqət cəlb edirlər və problemin həllini öz fikir müstəvilərində təklif edirlər. Komanda şəklində, yaxud bütün auditoriyanın iştirak etdiyi müzakirələr nəticəsində əməkdaşlıq təlimlərin fərqli həllərinin ortaya çıxmasında, hər birinin mənfəətini və faydalarını araşdırmaqda böyük rol oynayır.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsi zamanı bu metod özündə iki elementi birləşdirir: 1) vəziyyətin özü və 2) həmin vəziyyətə aid müzakirələr. Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsi zamanı real dünya həqiqətlərinin müzakirəyə cəlb edilməsi və həm qrup, həm də fərdi şəkildə müzakirələrin yaranması tələbələrin dil öyrənmə qabiliyyətlərinin artmasına səbəb olur. R. Korey yazır: "Təhsildə keys metodunun işlədilməsi məlumtla tələbələrin təmin edilməsini şərtləndirir. Həmin məlumat tələbələrin öyrəndikləri ölkə ilə əlaqədar olduğundan bu tələbələri həm maraqlandırır, həm də onlarda öyrəndikləri xarici dildə sərbəst danışmaq, düşünmək bacarığını

formalaşdırır” [1, s. 581]. Bu zaman əsas məqsəd müzakirə edilən məsələdə təhlil, yaxud nəticə deyildir. Əsas iş tələbələrin müzakirə edilən məsələ ilə bağlı bir-birlərilə ünsiyyət qurması, düşüncələrini bölüşməsi, fərqli seçimlərin müşahidə edilməsi və sinif otağı fəallığının artması hesab edilir. Belə olduğu halda sual yaranır ki, ingilis dilində ‘case’ Azərbaycan dilində terminin olduğu kimi tələffüzünü saxlasaq da əslində *vəziyyət, hal* metodu kimi tərcümə edilən və sırf həmin anlamı daşıyan bu metod nəyi əhatə edir? H.Dumez bununla bağlı olaraq yazır: “Keyslər özündə məlumatı birləşdirən və təhlilə şərait yaradan əhvalatlar, hekayələr, mətnlər və s. ehtiva edir. İştirakçılar (bizim hədəfimiz tələbələr olduğundan biz tələbələr deyə nəzərdə tutacağıq) əldə etdikləri məlumatla bağlı qərar qəbul etmək, hər hansı bir subyektiv nəticəyə gəlmək və hətta qiymətləndirməni belə əhatə edə bilərlər. Keyslər dili öyrənilən ölkənin rəsmi materiallarını obyekt kimi işlədir” [2, s. 43]. Məsələn, ingilis dilini öyrəndiyimizdən Harvard Universiteti, yaxud Kennedi Skul tərəfindən işlədilən məlumatlardan istifadə etmək olar.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsi zamanı işlədilən keyslər qərarlar qəbul edilməli və ya həll olunmalı problemləri ehtiva edir və ya mövcud siyasətin, praktikaların və ya təkliflərin qiymətləndirilməsini və yenidən nəzərdən keçirilməsini əhatə edir. Ən təsirli keys metodu real hadisələri əhatə edən metodlar adlanır.

Keys metodu tələbələrdən tələb edir ki, onlar öz dərsliklərində gördükləri və ya mühazirələrdə eşitdikləri nəzəriyyə və praktikanın tətbiqi arasında təhlili aparsınlar və hansı nəzəriyyəyə və ya konsepsiyaya müraciət etmələrinə dair seçim etsinlər.

Keys metodu zamanı işlədilən məlumatlar digər dərsliklərdə, mühazirələrdə işlədilən nümunələrdən fərqlənir. Keys metodunun üstünlüyü odur ki, o, tələbələri məlumatla təmin edir, lakin onlara heç bir təhlil vermir. Tələbələr məlumatı əldə etdikdən sonra özləri təhlil aparır və nəticəyə gəlirlər.

C.Hammond yazır ki, keyslərin işlətdikləri məlumatlar mürəkkəb və standart olmayan məlumatlar olmalıdır. Bu məlumatlar fərqli və bir-birilə əlaqəsi olmayan məlumatlar hesab edilir. Keys metoduna daxil olan məlumat hər hansı bir analitikin işlətdiyi məlumat deyildir. Bu məlumatların təmiz, yaxud asan cavabı yoxdur. Keyslər təklif etdikləri məlumatla müzakirə üçün zəngin kontekstual mənbə yaradır və tələbələrə imkan yaradır ki, dərsdə öyrəndikləri materialı həmin əldə etdikləri məlumatdan istifadə edərək möhkəmləndirsinlər [4, s. 10]. Eyni məlumat eyni kursda bir-neçə dəfə təqdim oluna bilər.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsinin tədris prosesində ikinci üsulunu ‘role

play' kimin təqdim edə bilərik. *Role play* nə deməkdir? Tələbə baş verən hadisədə özünü həmin şəxsin yerinə qoyur və həmin vəziyyətdə necə çıxış yolu tapardı məsələləri barədə düşünür və bunu yoldaşları ilə bölüşür, fikrini izah edir, seçdiyi variantları müdafiə edir və gəldiyi nəticəni açıqlayır [5, s. 11]. Beləliklə, bu problemləri müzakirə etməklə, tələbələr sanki müəyyən dərəcədə rol oynayırlar.

Marine Korps Universitetində keys metodunu ilə tədris edən müəllimlərdən çoxu tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişaf etdirilməsində 'role play'-yə üstünlük verirlər. Hətta müəllimlər bu zaman tələbələri həmin hadisəyə uyğun olaraq adlandırmaqdan belə çəkinmirlər. Məsələn, ingilis dilini xarici dil kimi tədris edən müəllim, İngiltərənin kralıçası barədə bir məlumatı təqdim edir. Bu zaman müəllim çəkinmədən keys metoduna uyğun olaraq tələbələri sinif otağında kraliça, kral və digər kraliyyət ailəsinin üzvlərinin adları ilə adlandıra bilər. Məsələn, tələbələrdən birinə çəkinmədən İngiltədə qəbul olunduğu kimi "Your Majesty" demək olar. Bunun üstünlüyü nədər ibarətdir? Tələbələr dilini öyrəndikləri ölkənin adət-ənənələrilə tanış olur və onların düşüncələrinə uyğun olaraq addım atmağa çalışırlar. Bu zaman təbii ki, situasiyadan asılı olaraq sanki ənənə mübadiləsi gedir. Dərslər ingilis dilində aparılır, müzakirələr edirlir və tələbənin danışıq qabliyyəti, vərdişi inkişaf edir.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsi zamanı diqqəti cəlb edən məsələlərdən biri də tələbələrin tarixə baxışlarının cəlb edilməsidir. Bu nə deməkdir? Tələbələr təklif olunan mövzu ilə bağlı öz fikirlərini bildirdikdən sonra müəllim hadisəsinin əsli ilə bağlı olan materialı onlara təqdim edir. Material video şəklində, yaxud qısa mühazirə şəklində, məqalə şəklində və s. formada ola bilər. Bu zaman tələbələr hadisənin reallığını izləyir və öz düşündükləri vəziyyətlə real olan vəziyyət arasındakı məsələləri nəzərdən keçirdir və firkir mübadisəli aparırlar. Bu mərhələdə müəllimin üzərinə böyük məsuliyyət düşür. Hər bir halda müəllim elə şərait yaratmamalıdır ki, tələbələr hiss etsinlər ki, tarixi həll yeganə "düzgün" variant deyildir.

Sinif otaqlarında tələbələr hadisə ilə, onlara təqdim edilən mövzu, real dünya həqiqətilə bağlı olan məlumatı təhlil edir və həmin məlumatın həlli yollarını müzakirə vasitəsilə həll etməyə çalışırlar. Müzakirələr müxtəlif yollarla aparıla bilər. Məsələn, müəllim tələbələrə birbaşa sual verə bilər və tələbələrin diqqətini həmin mövzuya yönəldə bilər, müəllim açıq tipli sual-cavab formalarından da istifadə edə bilər. Qrup şəklində də tələbələr bir-birlərilə müzakirə aparıb mövzu ilə bağlı fikir mübadiləsi edə bilərilər.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsində keys metodunun məqsədi odur ki, o,

çətin bir problemi cəld qavramaq, cəld və münasib həllə gəlmək və mövcud məsələ ilə bağlı digər tələbələrlə ünsiyyətə girmək, həmçinin digər millətlərə, xüsusilə xarici dilin öyrənildiyi millətin düşüncə tərzinə, hadisəyə münasibətinə bələd olmaq. Bu zaman keys metodu aşağıdakılara da nail olmağı bacarır: tələbələri olduqca çox maraqlanırmaq; canlı situasiya qurmaq və ünsiyyətə nail olmaq; tarixi, yaxud real faktların öyrənilməsi; dil öyrənmənin fərqli texnika və prosedurları və s. [7, s. 47]Bu zaman tələbələrə müxtəlif tərkibli çətin suallar da verilə bilər ki, bunlar da tələbələrin öz sənətlərinə dərindən yiyələnmələrinə şərait yarada bilər. Məsələn bir mətn təqdim edək və tələbələrin İngiltərə kraliyyət ailəsinin üzvü mərhum prinsesa Dianaya olan münasibətlərini müzakirəyə təqdim edək:

*Diana, Princess of Wales was a member of the British royal family. She was the first wife of Charles, Prince of Wales, the heir apparent to the British throne, and the mother of Prince William, Duke of Cambridge, and Prince Harry, Duke of Sussex.*

*Diana was born into the Spencer family, a family of British nobility, and she was the youngest daughter of Viscount and ViscountessAlthorp. She grew up in Park House, situated on the Sandringham estate, and was educated in England and Switzerland. In 1975, after her father inherited the title of Earl Spencer, she became known as Lady Diana Spencer.*

Bu mətn bizə adi görünə bilər. Lakin Azərbaycanlı bir tələbə İngiltərədən gəlmiş bir ingilisə bu mətn təqdim edilir və həmin əsnada Diananın internetdən götürülən məhrəm sirləri barədə danışmaq istəyir. İngilis tələbə bu barədə danışmaq istəmir. O, Diananın onların ölkəsi üçün etdiyi xeyir işlərini xatırlayır və bu digər məsələlərə toxunmaq istəmədiyini bildirir. Keys metodun tələbələrin mədəniyyətlərarası ünsiyyətinə təsirinin bir cəhəti də budur ki, münasibətdə olarakən mədəniyyətlərin bir-birinə uyğunlaşması gözlənilməlidir.

Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının Keys metodu vasitəsilə inkişaf etdirilməsi zamanı aşağıdakı mövzulara toxunmaq olar:

1) təhsil;
2) gündəlik ünsiyyət (məsələn, kilsədə ünsiyyət, məclisdə ünsiyyət və s.);
3) yenidən qurma və vaxtın səmərəli keçirulməsilə bağlı olan mövzular;
4) mənəviyyatla bağlı olan mövzular;
5) sosial etiketlə bağlı olan mövzular;
6) professional sahəni əhatə edən mövzular;
7) milli mənəvi dəyərləri olan mövzular və s. [10, s. 246]

Təhsildə düzgün qurulmuş keys metodu Tələbələrinin mədəniyyətlərarası ünsiyyət bacarıqlarının düzgün inkişafına şərait yaradır və onlarda

diqqətin artmasına, məlumatın çoxalmasına, faktların öyrənilməsinə və lazım olmayan lüzumsuz millətlərarası münaqişələrdən yayınmağa şərait yaradır.

## Ədəbiyyat


1. Corey R. Case Method Teaching.*Harvard Business School* (9), pp.581-682, 1998.
2. Dumez H. What is a case, and what is a case method? In *Bulletin of Sociological Methodology*, 127 (1), pp. 43-57, 2015.
3. Gudmundsson B.I. Decision-Forcing Cases. Quantico, VA: Marine Corps University, 2014, 290 p.
4. Hammond J.S. Learning by the case method. Boston, MA: HBS Publishing Division, 2002, 150 p.
5. Herreid C.F. Because Wisdom Can't Be Told: Using Case Studies to Teach Science. Boston: Marine University Press, 2005, 340 p.
6. Halverson R. Accessing, documenting and communication the phronesis of school leadership practice. In *American Journal of Education*, 111 (1), pp. 90-122, 2004.
7. Martin J.N., Nakayama T.K. Experiencing intercultural communication: An introduction, 2nd edition. Boston: McGraw Hill, 2005, 347 p.
8. Moster M.P. Challenges of Case-Based Teaching. In *The Behavior Analyst Today*, 8 (4), 2007, pp. 434-442.
9. Nkhoma M., Quang H. Using case method to enrich students' outcomes. In *Active Learning in Higher Education*, 18 (1), 2017, pp. 37-50.
10. Tareva E.G., Schepilova A.V. Tarev B.V. Intercultural Content of a Foreign Language Textbooks: Concept, Texts, Practices. In *Xlinguae Journal*, 10 (3), 2017, pp. 246-255.
11. Woodward K. Identity and Difference. London: SAGE publications Ltd., 2002, 363 p.


**G.Alıyeva**

## The purpose of using the case method in the development of the intercultural communication ability of students

### Summary

The article deals with the purpose of using the case method in the development of the intercultural communication ability of students. It states that the case method is a teaching approach that uses decision-forcing cases to put students in the role of people who were faced with difficult decisions at some point in the past. The article mentions the creator of the method as

well. The contrasts with many other teaching methods have been touched upon in the article. It highlights that the case method requires the teachers to refrain from providing their own opinions about the decisions. The article especially underlines the purpose of the case method in the development of the intercultural communication of students.The case method in the development of the intercultural communication of students gives students the ability to quickly make sense of a complex problem, rapidly arrive at a reasonable solution, and communicate that solution to others in a suitable and effective manner.The author uses some contexts in order to demonstrate her point of view while developing the intercultural communication ability of students. The article covers enough linguistic sources.

**Г.Алиева**

**Цель использования метода кейса в развитии межкультурной коммуникационной способности студентов**

**Резюме**

В статье рассматривается цель использования кейс-метода в развитии межкультурных коммуникативных способностей студентов. В нем говорится, что кейс-метод является обучающим подходом, который использует кейс для принуждения к принятию решений, чтобы поставить учеников в роль людей, которые сталкивались с трудными решениями в какой-то момент в прошлом. В статье упоминается и создатель метода. Контрасты со многими другими методами обучения были затронуты в статье. Это подчеркивает, что метод кейса требует, чтобы учителя воздерживались от предоставления своего собственного мнения о решениях. В статье особо подчеркивается цель кейс-метода в развитии межкультурного общения студентов. Кейс-метод в развитии межкультурного общения студентов дает студентам возможность быстро разобраться в сложной проблеме, быстро прийти к разумному решение, и передать это решение другим подходящим и эффективным способом. Автор использует некоторые контексты, чтобы продемонстрировать свою точку зрения при развитии способности межкультурного общения студентов. Статья охватывает достаточно лингвистических источников.

**Rəyçi: Nailə Sadıqova**
**Filologiya elmləri doktoru**